| Aydın Mirzəzadə | |
|---|---|
| Aydın Böyükkişi oğlu Mirzəzadə | |
| **Azərbaycan Respublikası Milli Məclisinin deputatı** | |
| noyabr 2000-ci il ildən hal-hazıradək | |
| **YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, (2015 - 2021)** | |
| 29 yanvar 2015 | |
| **Şəxsi məlumatlar** | |
| **Partiya** | YAP |
| **Təhsili** | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu |
| **Doğum tarixi** | 2 iyul 1957 (64 yaş) |
| **Doğum yeri** | Mingəçevir, Azərbaycan SSR, SSRİ |
| **Atası** | Böyükkişi Mirzəzadə |
| **Anası** | Firəngiz Mirzəzadə |
| **Uşağı** | 2 övladı var |
| **Elmi fəaliyyəti** | |
| **Elmi dərəcəsi** | siyasi elmlər üzrə fəlsəfə doktoru |
| **Təltifləri** |  |

**Aydın Böyükkişi oğlu Mirzəzadə** (2 iyul 1957, Mingəçevir) — Azərbaycan Respublikası II, III, IV, V və VI çağırış Milli Məclisinin deputatı, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü. Siyasi elmlər üzrə fəlsəfə doktoru (2003-cü il), dosent, YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, (2015 - 2021), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İctimai Etimad Şurasının sədri.

## Həyatı və fəaliyyəti

Aydın Mirzəzadə 2 iyul 1957-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. 1974-cü ildə Mingəçevir şəhər 10 saylı orta məktəbi bitirmişdir. 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun inşaat fakültəsinə qəbul olunmuş və 1980-ci ildə buranı inşaatçı-mühəndis ixtisası ilə bitirmişdir. Təhsil müddətində İnstitut Tələbə Şurasının üzvü kimi ictimai fəaliyyətlə məşğul olmuş, tələbə-inşaat dəstələri hərəkatında fəal iştirak etmişdir.

1980-ci ildə təyinatla RSFSR-in Kalinin vilayətinin Rjev şəhərində yerləşən 1315 saylı səyyar mexanikləşdirilmiş dəstənin tikinti ustası işləmişdir. 1980-1982-ci illərdə Sovet ordusunda həqiqi hərbi xidmətdə olmuşdur.

1982-1993-cü illərdə Mingəçevir şəhərində yerləşən Azərbaycan DRES tikintisində müxtəlif vəzifələrdə çalışmışdır. 1992-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

1992-ci ildə Yeni Azərbaycan Partiyası Mingəçevir şəhər təşkilatının yaradılmasında iştirak etmiş və 1992-1999-cu illərdə təşkilatın sədri olmuşdur. 1993-cü ildən Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının köməkçisi, müavini, 1997-2000-ci illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi şöbəsinin sektor müdiri vəzifələrində çalışmışdır. Yeni Azərbaycan Partiyasının I (1999-cu il), II (2001-ci il), III (2005-ci il), IV (2008) və V qurultaylarında (2013-cü il) partiyanın Siyasi Şurasının üzvü seçilmişdir.

2003-cü ildə prezident seçkilərində prezidentliyə namizəd Heydər Əliyevin, 2008-ci il prezident seçkilərində prezidentliyə namizəd İlham Əliyevin seçkiqabağı vəkili olmuşdur. 2008-ci, 2013-cü və 2018-ci il prezident seçkilərində, 2009-cu il və 2016-cı il Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı keçirilən referendumlarda və 2009-cu, 2014-cü və 2019-cu il bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasında Yeni Azərbaycan Partiyasını məşvərətçi səslə təmsil etmişdir.

29 yanvar 2015-ci ildən 1 aprel 2021-ci ilədək YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri olub.

Azərbaycan Milli Ensiklopediyasının eksperti, siyasi elmlər üzrə fəlsəfə doktorudur. 13 kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosentidir. Kitablarından dərs vəsaiti kimi istifadə edilir. Politologiya sahəsində geniş tədqiqat işi aparır.

2014-cü ilin sonunda Aydın Mirzəzadənin Türkiyənin MLEC Kitab Nəşriyyatı tərəfindən türk dilində "Karabağ düğümü" adlı kitabı böyük tirajla çap edilib. Kitabda çoxsayı xəritələr, şəkillər, tarixi sənədlər, beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər verilib.

2016-cı ilin sonunda Aydın Mirzəzadənin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində erməni dilində "Qarabağ düyünü" kitabı nəşr ediliub. Bu azərbaycanlı tədqiqatçının xaricdə erməni dilində Dağlıq Qarabağ probleminınə dair nəşr edilən ilk fundamental əsəridir.

## Parlamentdə

Azərbaycan Respublikası II (2000), III (2005), IV (2010), V (2015) və VI çağırış (2020) Milli Məclisinin Mingəçevir 47 saylı seçki dairəsindən deputat seçilib. Milli Məclisin Təhlükəsizlik və Müdafiə komitəsinin üzvüdür. Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyası Azərbaycan milli nümayəndə heyətinin üzvüdür. Azərbaycan -Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İran, Azərbaycan-İsrail, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Pakistan, Azərbaycan-Polşa, Azərbaycan-Rusiya, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

## Ailəsi

Evlidir, 2 övladı var.

## Mükafatları

- 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 noyabr 2017-ci il tarixli sərəncamı ilə.
- "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 may 2019-cu il tarixli sərəncamı ilə
- "Azərbaycan Sərhəd Mühafizəsinin 90 illiyi (1919-2009)" yubiley medalı - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Rəisinin 17 avqust 2009-cu il tarixli əmri ilə.
- "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı - Azərbaycan Respublikası Müdafiə Nazirinin 19 sentyabr 2009-cu il tarixli əmri ilə.
- "Əfqanıstanda döyüş əməliyyatlarının bitməsinin 25 illik xatirəsinə" medalı - Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Rəisinin 28 yanvar 2014-cü il əmri ilə.
- "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi (1919-2014)" yubiley medalı - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Rəisinin 4 may 2014-cü il tarixli əmri ilə.
- "Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 20 illiyi " medalı - MDB Nazirlər Şurası yanında beynəlmiləçi döyüşçülərin işləri üzrə Komitə sədrinin 16 sentyabr 2010-cu il tarixli əmri ilə.
- “Vətən naminə” medalı - Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi İdarə Heyətinin 19 iyun 2017-ci il tarixli 7 saylı əmri ilə.
- "Hərbi vətənpərvərlik işlərində xidmətlərinə görə" medalı - Azərbaycan Respublikası KHVTC nin mükafatı.
- “Azərbaycan Polisinin 100 illiyi (1918-1920)” Azərbaycan Respublikasının yubiley medalı - Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Ramil Usubovun 5 iyul 2018-ci il tarixli əmrinə əsasən
- “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı - Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun 15 oktyabr 2018-ci il tarixli əmrinə əsasən
- "Azərbaycan Respublikası Milli Məclisinin "Parlament" medalı" - Azərbaycan Xalq Cumhuriyyətinin Parlamentinin yaranmasının 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun 24 dekabr 2018-ci il tarixli sərəncamı ilə
- “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)” medalı - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (DSX) Rəisi, general-polkovnik Elçin Quliyevin sərəncamı ilə
- "Əfqanıstanda 40-cı ordunun fəaliyyətinin başa vurmasının 30 illiyi" yubiley medalı - Veteran Təşkilatlarının Fəaliyyətini Koordinasiya Üzrə Komitənin Sədri Boris Qromovun imzası ilə
- "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) 100 illiyi (1920-2020)” Azərbaycan Respublikasının yubiley medalı - Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayevin imzası ilə